# Düşünən və düşündürən şair



Yusif YUSİFOV

*(Əvvəli ötən sayımızda)*

Uşaq şeirləri Musa Ələkbərlinin körpə, kiçikyaşlı dəyərli varlıqları xüsusi məhəbbətlə sevdiyini, onların bizdə - ata-analarda, baba-nənələrdə xoş əhval yaratdığını, həyat eşqimizi gücləndirdiyini, parlaq boyalarla, təsirli bədii lövhələrlə əks etdirən poeziya nümunələridir. Ölçüyəgəlməz bu dəyərli poetik incilər sanki bizi uşaqlıq illərimizə qaytarır, ruhumuzu təzələyir. Qəlbləri oxşayan, ruhumuza güc verən uşaq şeirləri Musa Ələkbərlinin həm də Azərbaycan uşaq ədəbiyyatının əvəzsiz, təravətli bənzərsiz özəlliyi ilə uşaq mövzusunda yazılmış müxtəlif janrlı əsərlərdən seçilən gözəl nümunələrini yaradan sənətkar olduğunu göstərir. Onun ayrı-ayrı adlarda yaratdığı uşaq şeirləri söylədiklərimizin doğruluğunu təsdiqləyir.

“Ay Əli” şeiri də şairin bənzərsiz poetik nümunələridir:

Gəldin bu dünyaya nəzir-niyazla,
Yağmurlu payızla, gülaçan yazla.
Yayla da, qışla da aranı sazla,
Çəkib həsrətini illər, ay Əli.

Təzə sədan çatıb yurda, oymağa,
Sevincsən, müjdəsən elə, oylağa.
Yenicə bələnib bala, qaymağa
Adını səsləyən dillər, ay Əli.

Əli murazısan, adın bəllidir,
Soykökün məlumdu, zatın bəllidir,
Meydanın genişdir, atın bəllidir,
Önündə ağarır yollar, ay Əli. (3,s.261)

Maraqlı uşaq şeirləri içərisində “Balaca Sabirin bir yaşına” poeziya nümunəsinin xüsusi yeri vardır. Babalarının, nənələrinin əziz, istəkli nəvəsi Sabirə ithaf edilmiş bu şeirdə böyük ürəkli, yüksək estetik zövqlü, sağlam düşüncəli ustad şairin müraciət formasında yaratdığı bu yetkin poetik parçada həm məğrur, həm də mehriban, mülayim təbiətli, humanist söz ustadının balaca Sabirə ünvanlanan ən xoş arzuları və istəkləri əks olunmuşdur. Şeir oxucuda həm sevinc hissi oyadır, həyəcan doğurur, həm də həyati düşünməyə səsləyir. “Balaca Sabirin bir yaşına” şeirində oxuyuruq:

Bir yaşına quzu kəsim,
Ay Yusifin bir nəvəsi.
Babasının vuran qəlbi,
Sabirin Sabir nəvəsi.

Bir bayraqdır Sabir adı,
Sən unutma o ustadı.
Meşələrin şah palıdı,
Dəryaların dürr nəvəsi.

Bələkdə “dərs” keçən yağı,
Yağmalayıb neçə dağı.
Geri alar o torpağı,
Kükrək, coşğun, Kür nəvəsi.

Tutulmuşuq duman kimi,
Gərilmişik kaman kimi.
Böyü bir qəhrəman kimi
Aslan oğlu, şir nəvəsi.

Sən doğulan xoşbəxt gündən,
Sabahına baxır gendən.
Vətən çox şey umur səndən
Pir olmuşun pir nəvəsi. (06.02.2018)

Şeirin misralarında işlədilən hər bir söz balaca Sabirin timsalında azərbaycanlı ailələrində dünyaya gəlmiş, böyüməkdə, boya-başa çatmaqda olan oğlan uşaqlarının xoşbəxt gələcəyinə Vətənpərvər şairin böyük inam bəslədiyini, onlara xoşbəxt gələcək arzuladığını, Vətənlərinin keşiyində ayıq duracaqlarına inandığını göstərmiş, doğma dilimizin obrazlı leksik-semantik layı hesab edilən məcazların insanı insani münasibət yönündən səciyyənləndirən növlərindən ustalıqla bəhrələnib, tərənnüm etdiyi oğlan uşaqlarının - böyüməkdə olan övladların, nəvələrin bədii sözlə portretlərini yaradır, parlaq gələcəyinə böyük ümidlər bəslədiyi bu uşaqların qorxmaz, düşmənləri məhv etməyə qadir qəhrəman igid kimi böyüyəcəklərinə şübhəsi olmadığı üçün onları aslan balası, çöl heyvanlarının şahı, şirin, kükrəyən, coşan Kürün nəvəsi adlandırır, doğma vətənlərində qəhrəmanlıq ruhunda böyüyəcək həmin uşaqların sabahına indidən ümidlə baxır və bu igidləri dəryaların dürr nəvəsinə, meşələrin şah palıdına bənzədir. Onların bələkdə “dərs” keçən yağılardan yağmaladıqları dağlarımızı, torpaqlarımızı geri alacaqlarını söyləyir. Bədii sözün, şeirin dəyərli ustadı, böyük istedad sahibi Musa Ələkbərli bütün müsbət-mənəvi əxlaqi keyfiyyətləri səmimi münasibətdə olduğu dostlarından birinin sevimli nəvəsi, babasının və şeirimizin bayraqdarının adının daşıyıcısının timsalında ümumiləşdirmişdir. Yaxından tanıdığı, dostluq etdiyi insanların oğullarını, qızlarını, hər iki cinsdən olan nəvələrini özünə doğma sayıb, adlarını möhtəşəm kitabındakı şeirlərində əbədiləşdirməsi əziz və sevimli şairimiz Musa Ələkbərlinin, doğrudan da, ümumxalq məhəbbəti qazanmış böyük ədəbi və əbədi şəxsiyyət olduğunu söyləməyə, deməyə yetərincə haqq verir. Torpaqlarımızn bütövlüyü uğrunda neçə-neçə ağzın düşməni igidliklə məhv edən həyatını Vətənin azadlığı yolunda qurban verərək xalqın qəlbində ədəbi heykəlini ucaltmış milli qəhrəmanımız Mübariz İbrahimova ilk poemanı öz doğma yurdunu canından artıq sevən Musa Ələkbərli yazmışdır.

Çoxsaylı tələbkar oxucuların Musa Ələkbərli poeziyasına məhəbbətlə, hörmətlə yanaşmasının, ədəbi-elmi ictimaiyyətin bədii yaradıcılığı ömrünün, həyatının mənası sayan bu istedadlı şairin məzmun və formaca zəngin ədəbi irsini müsbət dəyərləndirməsinin, ümumxalq sevgisi qazanmasının ən başlıca səbəbi onun müxtəlif yaşlı insanların oxumağa, eşitməyə zəruri ehtiyac duyduğu, zamanın tələblərinə uyğun şeir və poemalar yazması, müsbət mənəvi-əxlaqi keyfiyyətlərin ləyaqətli daşıyıcısı, sadə, geniş ürəkli, xeyirxah, sağlam ruhlu, dünyagörüşlü, humanist şəxsiyyət kimi tanınması, yaradıcılığı ilə şəxsiyyəti arasında tarazlığın, harmoniyanın olmasıdır. Musa Ələkbərlinin ən mühüm şəxsi keyfiyyətləri sırasında təbiətə - dağlara, bulaqlara, meşələrə füsunkar gözəlliklərə vurğunluğu, Vətəninə dövlətinə sonsuz məhəbbətidir. Böyük ürəyin daşıyıcısı həm də dostluğa, yoldaşlığa sədaqətli olan ziyalılara - yazıçılara, alimlərə, müəllim və həkimlərə, eləcə də başqa sahələrdə çalışan qabaqcıl peşə-sənət sahiblərinə hörmət bəsləyən, istedadlı gənclərə, tələbələrə qayğı göstərən, onların öz işlərində uğurlar əldə etmələrindən, qazanmalarından sevinən insandır. Eyni zamanda o ədəbiyyatımızın ən böyük milli sərvətimiz olan doğma dilimizin beşiyi başında ayıq-sayıq dayanan keşikçilərdəndir. Ədəbi-ənənəyə sadiqliyi, onun yorulmadan düzgün yönündə davam və inkişaf etdirməyə çalışması da Musa Ələkbərlinin müsbət keyfiyyətləri sırasına daxildir.

Görkəmli, yüksək talantlı şairin bu yaxınlarda işıq üzü görən olduqca maraqlı “Ürəyimin qapısından keçənlər” (Bakı-2018,472 səh) adlı möhtəşəm, rəngarəng, bir-birindən maraqlı mövzularda şeirləri özündə əks etdirən, birləşdirən kitabı Musa Ələkbərlinin oxuculara verdiyi ən böyük və dəyərli hədiyyədir. Zəngin Azərbaycan ədəbiyyatı xəzinəsi çox dəyərli fikirlərin dolğun nümunəsi olan belə möhtəşəm əsərlərin toplusudur. Güclü yaradıcılıq fantaziyası ilə həyat həqiqətlərinin ayrılmazlığı, bölünməz bütövlüyünü onların möhkəm qırılmaz tellərlə bağlılığını yaşadan, gələcək nəsillərə çatdıran bu yaradıcılıq məhsulları çoxəsrlik ədəbiyyatımızın qızıl fondunu formalaşdıran, onu irəliyə doğru aparan bədii parçalardır. Müxtəlif ölçülü və biçimli ədəbi parçaların birliyi yaradıcı insanların məntiqə söykənən müdrik, hikmətli düşüncələrini, varlıqlarla, hadisələrlə bağlı, real, romantik hisslərini, həyəcanlarını, dünyaya, həyata emosional münasibətlərini yazılı nitqdə gerçəkləşdirən “insanşünaslığı” - bədii ədəbiyyatı formalaşdırır. Milli sərvətimizin istedadlı yaradıcılarından və sayıq, ayıq keşikçilərindən olan Musa Ələkbərli də göstərilən mənəvi keyfiyyətlərin müasir ədəbi-nəzəri tələblərini ödəyən şeirlərin müəllifidir.

Musa Ələkbərlinin bədii həllinə girişdiyi şeirlərin mövzu dairəsi genişdir. İti zəkası, güclü yaradıcılıq fantaziyası ilə tanınan şair müxtəlif illərdə yazdığı uğurlu yaradıcılıq axtarışlarını özündə birləşdirən və əks etdirən həm məzmun həm formaca mükəmməl, möhtəşəm kitabı “Ürəyimin qapısından keçənlər” adlandırması səbəbsiz deyildir. Əlli ildən artıq müddətdə yazıb-yaradan Musa Ələkbərli keçən yaradıcılıq dövründə ürəyinin qapısından keçənlərə, eləcə də özünün istədiklərinə, yaxşı münasibətdə olduğu insanlara qəlbinin hərarəti, yanğısı ilə şeirlər bəxş etmişdir. Ancaq Musa Ələkbərli çoxlarının ürəyində yer tutsa da, hər adam onun rəğbətini, hörmətini qazana bilməmişdir. Yəni belələrinə şairin ürəyinin qapısından keçmək nəsib olmamışdır. Məqalənin əvvəlində göstərdiyimiz kimi, görkəmli şairin ürəyinin qapısından keçməyə mənəvi haqları çatanlara, yəni özünə yaxın, doğma hesab etdiyi insanlara ithaf olunan şeirlər yalnız bu möhtəşəm yaradıcılıq qaynağında öz əksini tapa bilmişdir. Şairin bu kitabında bədii həllinə girişdiyi və yaradıcılıq axtarışlarında müsbət nəticələr əldə edərək, qazanaraq məqsədinə çatdığını göstərən şeirlər Musa Ələkbərlinin uzun illər ədəbi tapıntılar üzərində düşündüyünü, həmçinin oxucuları düşündürməyə çalışdığını söyləməyə imkan verir. “Doğmalara, əzizlərə...” başlıqlı şeir dediklərimiz onun misralarında görə bilirik:

Könül bir məbəddir, dayağı haqdı,
Uçdusa təzədən qurula bilməz.
Bu “təb” dedikləri elə bulaqdı,
Bulansa, bir daha durula bilməz!

Belə bədii parçalar böyük Səməd Vurğunun layiqli davamçısı, o müdrik ədəbi tarixi şəxsiyyətin ənənələrini davam etdirə bilmək gücü olan Musa Ələkbərli kimi talantların nitqində əksini tapır.

Musa Ələkbərli ilə bağlı yazımızda onu “Düşünən və düşündürən şair” adlandırmağımıza ötəri baxılmamalıdır. Bu talantlı şair yaradıcılığının ilk çağlarından insanda maraq oyadan, onu düşündürən misralar işlətmiş, oxuculara yaxın gələcəkdə adı, soyadı və mənalı misraları ağızda-dildə yuva quran şair olacağından xəbər vermişdir.

Kitabda Musa Ələkbərlinin ata-anasına, qardaş-bacılarına, Azərbaycanın məşhur, tanınmış ədəbi-tarixi şəxsiyyətlərinə ithaf etdiyi şeirlər diqqəti çəkir. Bu şeirlərdə həssas qəlbli şairin sevinci də, kədəri də çox güclüdür. Onun dəyərli poetik nümunələrini həyəcansız oxumaq olmur. Şeirlər söylədiklərimizi təsdiqləyir.

Atama
Altı ildi bizdən ayrılmısan
Altı ildi sənə doğru
yol gedirəm.
Bəlkə sən deyəsən
əzrayıla
Altı saniyəlik səbrim
qalmayıb, ata!(səh.419)

şeir ataya övladın sonu görünməyən sevgisinin oğulun ürəyində onun heç vaxt uçmayacaq yuvasının, yurdunun sözlə çəkilmiş portretidir.

Yüz bulaq quruya, yüz çay soğula,
Daha əlin yetməz qıza, oğula.
Nağıla döndərdik, səni nağıla
Gələnin, gedənin dilində qoyduq.

Ürəyim üzülür, ömrüm aşınır,
Gözümə soxanda kimsə yaşını.
Hələ yonulmamış məzar daşını
Uca zirvələrin zilində qoyduq.

Musa Ələkbərlinin atasının xatirəsinə ithaf etdiyi şeirindən nümunə göstərdiyimiz parçalar bütövlükdə şeir haqqında geniş, dolğun təsəvvür yaratmaq üçün yetərlidir. Oğulun ataya alovlu sevgisinin reallaşdığı bu şeirin gücü bədiiliyi, obrazlılığı, mövzusunun aktuallığı ilə yanaşı, ədəbi məzmununda və fəlsəfi xarakter daşımasındadır. Atasına olan ölçüyəsığmaz məhəbbəti, istəyi həssas qəlbli, mehriban və qeyrətli şair oğulda ona bir neçə şeir yazmaq tələbatı oyatmışdır. Buna görə də qulağımızda çox təbii, nitqimizdə daha obrazlı, ifadəli səslənən dədə rədifli şeir yazmışdır:

Sevginlə seçmədin dostu, düşməni
Ancaq azalmadı başının çəni.
Bu yadlıq, ögeylik qorxutdu səni
Biz ayrı olmadıq, bir olduq dədə.

Hər sözün, söhbətin bir xəzinədir,
İndi neştərləyir, indi göynədir.
Biz səndən öyrəndik dədəlik nədir,
Bildikmi necədir oğulluq dədə?!

Dərdin dərdlərimin üstə qalandı,
Şaxlığım, şuxluğum daha yalandı.
Dağlarda ən uca dağım talandı,
Sındırdın belimi biryolluq dədə!

Dədə, ata sözləri sinonimlər olsa da eyni valentli sözlər deyildir. Dədə sözünün semantik çəkisi, məna yükü daha ağırdır. Bu sözlər ataya nisbətən, övlada daha yaxın, daha doğma münasibəti bildirən leksik olduğu üçün semantik incəliyinə görə həm də müəyyən qədər rəsmi mənanın daşıyıcısı sayılan ata sözündən fərqlənir. Həm ata, həm də dədə leksik, yaxud lüfəti mənalara uyğun gəlsələr də, yəni eyni leksik mənalı sözlər hesab edilsələr də, dədə sözündəki məna çaları, semantik incəlik ata sözündə yoxdur. Ona görə də ata sözü leksik, dədə sözü isə leksik semantik vahiddir. Başqa cür desək, diqqəti çəkəcək səviyyədə ata sözü ilə qarşılaşmada dədə sözünün güclü, tutarlı leksik-semantik mənası vardır. Dilçilik ədəbiyyatında lüğəvi məna, leksik məna, semantik məna terminləri işlədilir. Sözün lüğəvi və leksik mənası terminlərinin fərqləndiyini görürük. Sözün lüğəvi yaxud leksik mənası dedikdə onun bu və digər məfhumu (anlayışı) ifadə etməsi mənasında başa düşülür. Leksik mənanın məfhumun bilavasitə ifadəçisinə deyildiyi aydın olur. “Leksik məna məfhumun bilavasitə ifadəçisidir”. Sözün semantik mənası ilə sözün lüğəvi mənasının fərqləndiyini, bəzən də eyniləşdiyini, hətta bəzən onları birləşdirmək “leksik-semantik” ifadəsindən istifadə edildiyi diqqətə yönəldilmişdir. Bu mənalardan danışan dilçi alim yazmışdır.

“Bu başdan deyək ki, sözün leksik və sematik mənaları arasında nə qədər yaxınlıq olsa da, bu mənalar bəzən bir-birinin üstə düşsə də, onlar müxtəlif mənalardır. Sematik məna sözün leksik mənasına tabe olan, leksik məna fonunda fəaliyyət göstərən, bu fonda çalarlaşan məna incəlikləridir. Sematik məna leksik mənaya tabedir. Sematik sözün leksik mənasında müxtəlif vasitələrlə əmələ gələn məna hissəcikləridir.” Prof. Y.Seyidov sematik mənanın məfhumla bağlılığını desə də, onun müstəqil ifadəçisi olmadığını söyləmişdir. O, sözün ilkin leksik mənası əsasında əmələ gələn çoxmənalılığın sözün leksik sematikası ilə bağlılığını demişdir.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 5-ci səhifədə)*

O, "leksik sematik" ifadəsini sözün leksik mənasının geniş anlayış olduğunu işlətdiyini, sematik mənanın içində, onun əhatəsində yerləşdiyini söyləmişdir. Görkəmli dilçi alimin fikrincə "sematik məna" və ya "sözün sematik mənası" ifadəsi işlədilsə də, onun leksik mənadan ayrılmazlığını, ondan kənarda "yaşaya bilmir" işlədilmir. (10.s 203-204, 14)

Bizcə professor Yusif Seyidovun yazdıqlarında danılmaz həqiqət vardır.

Musa Ələkbərlinin dədə, eləcə də digər məna incəliklərini, çalarlarını ifadə edən sözləri şeirlərində işlətməsi onu duyumu güclü olan şair adlandırmağa imkan verir.

Musa Ələkbərli ilə bağlı yazıya (məqaləyə) "Düşünən, düşündürən şair" adının verilməsi heç də təsadüfi deyildir. Lirik ədəbi növdə gözəl, özəl yaradıcılıq sərvətləri ilə ədəbiyyatımızı məzmun və formaca daha da zənginləşdirən sənətkarlar, şair-alimlər, ədəbi-elmi şəxsiyyətlər müəyyən ədəbi janrda, yaxud janrlarda yazdıqları sənət nümunələrinin dəyərinə görə xalqın çoxsaylı tələbkar oxucularının verdiyi həmin yüksək fəxri adın daşıyıcıları olublar. Yalnız insanların mənəvi tələbatını ödəyən, əsərləri ilə onların arzu və istəklərini gerçəkləşdirməyə çalışan, ürəklərdə yer tutan, yaddaşlarda qalan, öz xalqını, Vətənini güclü məhəbbətlə sevən yazıçılar milliliyi, eləcə də bəşəriliyi özündə birləşdirən əsərlərinin mövzuları üzərində həmişə düşünür və oxucuları düşündürə bilirlər. Belə yazıçıların hikmətli, müdrik fikirlərlə dolğun şeirləri ilə böyük, dahi Səməd Vurğunun ədəbi-ənənələrini bir-birindən həm məzmun, həm də diqqəti çəkən bədii sənətkarlıq xüsusiyyətləri ilə oxucuların sevdiyi hörmətlə, rəğbətlə yanaşdığı, dəyərləndirdiyi şeirlərində yaşadan, inkişafına çalışan nümayəndələrindən biri də Musa Ələkbərlidir.

Müdrik, hikmətli fikirlərlə dolğun, zəngin əsərlə müəllifi, istər ideya-məzmun, istərsə də formaca yüksək bədii keyfiyyətli şeirləri ilə böyük, dahi Səməd Vurğun ənənələrini öz yaradıcılığında yetərincə ləyaqətlə yaşadan, inkişaf etdirən Musa Ələkbərli də hikmətli sözlər, müdrik kəlamlarla dolğun olan yaradıcılıq nümunələrini oxucular üçün böyük maraq doğuran, onların mənəviyyatını zənginləşdirməyə xidmət göstərən aktual mövzularda şeirlər, poemalar yazmaq haqqında həmişə düşünən və çoxsaylı oxucularını düşündürən şairdir. Görkəmli söz ustadının yaradıcılığında hər zaman əməl etdiyi, əsaslandığı meyar, prinsip budur.

Həssas duyumlu şairin doğmalarına, sənət dostlarına ithaf etdiyi şeirlər təkcə onun bədii yaradıcılıq abidəsi adlanmağa layiq "Ürəyimin qapısından keçənlər"(Bakı-2018) adlı möhtəşəm kitabı deyil, ümumən milli ədəbiyyatımızı yaddaşlarda əbədi qalacaqlarına şübhə edilməyən poetik incilərdir.

## *Ədəbiyyat*

*1.Musa Ələkbərli "Gözlərim yol çəkir" (Bakı...)*

*2. Musa Ələkbərli "Sevgi bulağı" (şeirlər, Bakı, Yazıçı, 1989. 152 səh)*

*3. Musa Ələkbərli "Ürəyimin qapısından keçənlər" (Bakı-2018, 472 səh)*

*4.Musa Ələkbərli "Gözümdə ağlayan bulud" (şeirlər. Bakı. Gənclik.1992-239 səh)*

*5.Ağamusa Axundov "Ümumi dilçilik" (Şərq-Qərb, Bakı-2008, 280səh)*

*6."Azərbaycan ədəbiyyatı tarixi" I cild, (Bakı- 1960, 575 səh)*

*7.A.A.Nəzərov, M.A.Babayev, "N.Gəncəvinin hikmətli sözləri" (Bakı-2010,48 səh)*

*8. Musa Ələkbərli "Ata eşqi" (Bakı-2017,120 səh)*

*9. Musa Ələkbərli "Gəlir türkün səadəti" (Elm və təhsil" 2013, 184 səh)*

*10.Yusif Seyidov "Azərbaycan dilinin morfologiyası" (nəzəri kurs) (Bakı. Bakı Universiteti nəşriyyatı. 2000, 403 səh).*